COP29 Baku Azerbaijan

Yaşıl dünya naminə həmrəy olaq!



# “Yaşıl iqlim maliyyəsi və karbon qiymətqoyma siyasəti"



**Noyabrın 6-da İqtisadiyyat Nazirliyi, Dövlət Vergi Xidməti və Medianın İnkişafı Agentliyinin (MEDİA) birgə təşkilatçılığı ilə media nümayəndələri üçün "Yaşıl iqlim maliyyəsi və karbon qiymətqoyma siyasəti" mövzusunda seminar təşkil olunub.**

Seminarın məqsədi BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) öncəsi jurnalistlərin bu sahədə biliklərinin artırılması, Dünya Bankı Qrupunun "Business Ready" hesabatının "Vergitutma" indikatoru üzrə Yol Xəritəsi çərçivəsində ekoloji fiskal alətlərin tətbiqi ilə bağlı məlumatlılığın genişləndirilməsidir.

"Yaşıl iqlim maliyyəsi və karbon qiymətqoyma siyasəti" mövzusunda keçirilən seminarda İqtisadiyyat Nazirliyinin dayanıqlı inkişaf və sosial siyasət şöbəsinin müdiri Hüseyn Hüseynov və DVX-nin Vergi Siyasəti Baş İdarəsinin rəis müavini Oqtay Yaqubov təqdimatlarla çıxış ediblər.

Seminar zamanı İqtisadiyyat Nazirliyinin Dayanıqlı inkişaf və sosial siyasət şöbəsinin müdiri Hüseyn Hüseynov bildirib: "Azərbaycan hesab edir ki, təbii sərvətlərlə zəngin ölkələr iqlim dəyişmələri ilə mübarizədə liderlik etməlidir. Bu təşəbbüs iqlim maliyyəsindəki boşluqların aradan qaldırılmasına töhfə verə bilər. Bu məqsədlə COP29-la bağlı təkliflərdən biri də İqlim Maliyyəsi üzrə Fəaliyyət Fondunun yaradılması oldu. Fondun fəaliyyətə başlaması üçün 1 milyard dolların toplanması və ən azı 10 donor ölkənin fonda dəstək verməsi planlaşdırılır ki, COP29 çərçivəsində bu məsələnin əsas müzakirə mövzularından biri olacağı gözlənilir".

Şöbə müdiri qeyd edib ki, iqlim dəyişmələri ilə mübarizə nəticəsində Azərbaycanda istifadəyə yararsız torpaqların miqdarı 25 faizdən 15 faizə enəcək, tullantıların təkrar emalının isə 20 faiz (regionlarda 10 faiz) səviyyəsində olacağı proqnozlaşdırılır. O həmçinin vurğulayıb ki, Dünya Bankının hesablamalarına görə, 2023-cü ildə iqlim dəyişmələri ilə bağlı risklər qlobal kapital bazarlarına 300 milyard dollar ziyan vurub. Azərbaycanda 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyasının reallaşması nəticəsində ölkə iqtisadiyyatı hər il orta hesabla 3-4 faiz, qeyri-neft-qaz ÜDM-i isə illik orta hesabla 5 faiz artacaq, özəl sektorun iqtisadiyyatda payı 88 faizə çatdırılacaq.

Medianın İnkişafı Agentliyinin icraçı direktoru Əhməd İsmayılov, İqtisadiyyat Nazirliyinin Aparat rəhbəri Ayaz Əliyev və DVX-nin rəis müavini Samirə Musayevanın iştirak etdiyi seminarda iştirakçılara sertifikatlar təqdim olunub.

**Aygün İBRAHİMOVA,**
**"Respublika".**